| 1.10.1.11. | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 6 710 043 |
| **1.10.2.** | **Meşə təsərrüfatı** | **12 641 919** |
| 1.10.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 641 919 |
| **1.10.3.** | **Balıqçılıq və ovçuluq** | **2 607 070** |
| 1.10.3.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 607 070 |
| **1.10.4.** | **Ətraf mühitin mühafizəsi** | **16 345 250** |
| 1.10.4.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 14 295 251 |
| 1.10.4.2. | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 2 049 999 |
| **1.10.5.** | **Hidrometeorologiya** | **7 243 077** |
| 1.10.5.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 7 243 077 |
| **1.11.** | **Sənaye, tikinti və faydalı qazıntılar** | **5 087 186 695** |
| **1.11.1.** | **Tikinti** | **5 070 516 409** |
| 1.11.1.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 5 059 232 809 |
| 1.11.1.2. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 709 275 |
| 1.11.1.3. | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 574 325 |
| 1.11.1.4. | Sənaye, tikinti və faydalı qazıntılar sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 9 000 000 |
| **1.11.2.** | **Faydalı qazıntılar** | **12 670 286** |
| 1.11.2.1. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 5 977 605 |
| 1.11.2.2. | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | 6 692 681 |
| **1.11.3.** | **Geodeziya və Xəritəçəkmə** | **4 000 000** |
| 1.11.3.1. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi | 4 000 000 |
| **1.12.** | **Nəqliyyat və rabitə** | **166 536 278** |
| **1.12.1.** | **Nəqliyyat** | **110 032 278** |
| 1.12.1.1. | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000 |
| 1.12.1.2. | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 45 000 000 |
| 1.12.1.3. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi | 4 274 594 |
| 1.12.1.4. | "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxs | 48 101 272 |
| 1.12.1.5. | Yerli icra hakimiyyəti orqanları (Sumqayıt və Gəncə şəhərləri üzrə avtomobil nəqliyyatı fəaliyyətinin tənzimlənməsi) | 461 970 |
| 1.12.1.6. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2 184 442 |
| 1.12.2. | Rabitə | 56 504 000 |
| 1.12.2.1. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 1 504 000 |
| 1.12.2.1.1. | Universal poçt rabitəsi xidmətinin göstərilməsi və digər tədbirlərlə bağlı yaranan zərərin örtülməsi | 1 000 000 |
| 1.12.2.1.2. | Xüsusi yayım avadanlıqlarına xidmət | 420 000 |
| 1.12.2.1.3. | İnformasiya ehtiyatları və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinin aparılması | 84 000 |
| 1.12.2.2. | "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 55 000 000 |
| **1.13.** | **İqtisadi fəaliyyət** | **1 357 335 398** |
| **1.13.1.** | **İqtisadi və kommersiya fəaliyyəti** | **191 217 698** |
| 1.13.1.1. | Sahibkarlığa dəstək | 41 217 698 |
| 1.13.1.1.1. | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 24 855 921 |
| 1.13.1.1.2. | Qeyri-neft məhsullarının ixracı ilə bağlı tədbirlər | 13 361 777 |
| 1.13.1.1.3. | İqtisadi fəaliyyət üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 3 000 000 |
| 1.13.1.2. | Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri | 150 000 000 |
| **1.13.2.** | **İqtisadi fəaliyyətin digər sahələri** | **1 166 117 700** |
| 1.13.2.1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 10 184 842 |
| 1.13.2.1.1. | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 10 184 842 |
| 1.13.2.2. | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ("Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti) | 12 000 000 |
| 1.13.2.3. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | 1 150 000 |
| 1.13.2.3.1. | Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminin yaradılması | 500 000 |
| 1.13.2.3.2. | "Qəbələ radiolokasiya stansiyasının inzibati təsərrüfat zonası və texniki mövqe" Məhdud Məsuliyyətli Cəmiyyəti | 650 000 |
| 1.13.2.4. | "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi" publik hüquqi şəxs | 1 378 578 |
| 1.13.2.5. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (Yüksək Texnologiyalar Parkına verilən maliyyə yardımı) | 500 000 |
| 1.13.2.6. | Bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki iqtisadi əsaslandırmanın hazırlanması xərcləri | - |
| 1.13.2.7. | Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti | 959 504 280 |
| 1.13.2.7.1. | Nizamnamə kapitalının artırılması (Ümid, Qarabağ və Babək yataqları üzrə qazma işlərinin davam etdirilməsi ilə bağlı) | 663 200 000 |
| 1.13.2.7.2. | İdxal olunan təbii qazın "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə müqavilə dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin örtülməsi ilə bağlı subsidiya | 296 304 280 |
| 1.13.2.8. | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması (Şərq-Qərb dəmir yolu dəhlizinin Bakı-Böyük Kəsik xəttində rabitə-işarəvermə sisteminin yenidən qurulması ilə bağlı) | 100 000 000 |
| 1.13.2.9. | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması (tikintisi nəzərdə tutulan ümumi istehsal gücü 385 meqavat olan 22 ədəd modul tipli elektrik stansiyası üçün qaz əsaslı elektrik mühərriklərinin satın alınması ilə bağlı) | 81 400 000 |
| **1.14.** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **2 092 397 534** |
| **1.14.1.** | **Məqsədli büdcə fondları** | **372 000 000** |
| 1.14.1.1. | "Avtomobil yolları" məqsədli büdcə fondu | 372 000 000 |
| **1.14.2.** | **Ehtiyat fondları** | **765 278 769** |
| 1.14.2.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 301 053 774 |
| 1.14.2.2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 464 224 995 |
| **1.14.3.** | **Əsas bölmələrə aid edilməyən sair xərclər** | **955 118 765** |
| 1.14.3.1. | Beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 16 820 452 |
| 1.14.3.1.1. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 7 983 810 |
| 1.14.3.1.2. | Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 8 836 642 |
| 1.14.3.2. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 19 999 999 |
| **1.14.3.3.** | **Digər xidmətlər üzrə xərclər** | **918 298 314** |
| 1.14.3.3.1. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası) | 1 612 012 |
| 1.14.3.3.2. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların, orderlərin, medalların hazırlanması və lisenziya blanklarının çap edilməsi) | 19 999 409 |
| 1.14.3.3.3. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 25 258 718 |
| 1.14.3.3.3.1. | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 6 855 470 |
| 1.14.3.3.3.2. | Valyuta konvertasiyası | 1 662 834 |
| 1.14.3.3.3.3. | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması, digər işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 5 126 132 |
| 1.14.3.3.3.4. | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 245 002 |
| 1.14.3.3.3.5. | Məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər sosial-iqtisadi tədbirlər | 11 369 280 |
| 1.14.3.3.4. | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 2 012 821 |
| 1.14.3.3.5. | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 10 923 889 |
| 1.14.3.3.6. | Dövlət maddi və material ehtiyatlarının yaradılması | - |
| 1.14.3.3.7. | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | - |
| 1.14.3.3.8. | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 18 719 897 |
| 1.14.3.3.9. | İslahatlarla bağlı xərclər | 825 858 157 |
| 1.14.3.3.10. | Yerli xərclərdə nəzərdə tutulmayan sosial-iqtisadi və digər təyinatlı tədbirlər | 11 251 565 |
| 1.14.3.3.11. | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 2 661 846 |
| **1.15.** | **2018-ci ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği** | **4 656 630** |

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsindəki cədvəlin 1.14-cü və 2.6.1.1-ci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 2-ci maddəsindəki cədvəlin 1.14-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu, 2.6.1.1-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2019-cu il*

# Qarşılıqlı dəstəyə əsaslanan məsuliyyətli tərəfdaşlıq

*Əvvəli 1-ci səh.*

Bunu isə həm Azərbaycanın xarici siyasət kursunun səmərəliliyinin göstəricisi, həm də Prezident İlham Əliyevin uzaqgörən siyasətinin təntənəsi adlandırmaq olar. Azərbaycan Prezidenti tərəfindən yürüdülən müstəqil xarici siyasət Avropa İttifaqı ölkələri ilə bərabərhüquqlu, yaxın təmaslara söykənən harmonik münasibətlərin qurulmasına əsaslanır. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın geostrateji mövqeyi bu quruma üzv dövlətlərin də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməyə marağını daha da artırıb.

Təkcə Avropa İttifaqı ilə Azərbaycan arasındakı son 16 ildə reallığa çevrilən siyasi və iqtisadi münasibətlərin inkişaf dinamikasına nəzər yetirsək əlaqələrin hansı səviyyədə olduğunu aydın şəkildə görə bilərik. Son 5 il ərzində isə münasibətlərin daha da dərinləşməsinin şahidiyik. Qarşılıqlı səfərlər, keçirilən görüşlər və tərəflər arasında imzalanan mühüm sənədlər bunu bir daha təsdiqləyir.

Donald Tuskun Avropa İttifaqı Şurasının Prezidenti qismində Bakıya son səfəri isə bir daha əlaqələrin daha da möhkəmlənməsi, yeni sazişin imzalanması prosesinə mühüm töhfə verdi. Əgər Donald Tuskun 2012-ci ilin iyul ayında Azərbaycana etdiyi ilk səfər zamanı söylədiyi fikirlərə nəzər yetirsək görərik ki, həqiqətən də 5 il müddətində Azərbaycan Avropa İttifaqı münasibətləri müsbət dinamika ilə inkişaf edib.

Bütün bunlar əlbəttə ki, Prezident İlham Əliyevin uğurlu diplomatik fəaliyyəti sayəsində gerçəkləşib. Elə Bakıda keçirilən görüş zamanı cənab Tusk da bu məsələyə toxunaraq vurğuladı ki, əldə edilən nailiyyətlər məhz cənab İlham Əliyevin konstruktiv rolu sayəsində reallığa çevrilib.

Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini söyləyən Prezident İlham Əliyev isə qarşılıqlı səfərlərin, aparılan danışıqların, imzalanan sənədlərin tərəfdaşlığı yeni səviyyəyə yüksəltdiyini söylədi və bəyan etdi ki, qarşıdakı illərdə bu tərəfdaşlıq daha müsbət məcrada inkişaf etdiriləcək. Dövlət başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin tərəfdaşlıq ruhuna və qarşılıqlı dəstəyə əsaslandığını söylədi.

Əlbəttə ki, münasibətlərin dərinləşməsi hər iki tərəfin maraqlarına xidmət edir. Çünki Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin, demək olar ki, 50 faizini bu ittifaqın üzv ölkələri ilə olan ticari əlaqələr təşkil edir. Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşunun 35 faizi Avropa İttifaqı ölkələrinin payına düşür. Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 25 milyard dollara yaxın investisiya yatırılıb. Azərbaycan Avropa İttifaqına üzv 9 dövlət ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Avropa İttifaqının 24 üzv ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 18 üzv ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması sazişləri imzalanıb, 16 üzv ölkə ilə Hökumətlərarası Komissiya və İşçi Qrupları, İdarəetmə Komitəsi fəaliyyət göstərir. Azərbaycanda 1500-dən çox Avropa İttifaqı ölkələrinin şirkəti fəaliyyətdədir. Avropa İttifaqının bir sıra ölkələri (Almaniya, Fransa, Avstriya, İtaliya, Yunanıstan, Polşa və s.) ilə Azərbaycan arasında ticarət palataları mövcuddur.

2018-ci ilin iyul ayının 11-də isə Brüsseldə Prezident İlham Əliyev və Donald Tuskun iştirakı ilə tərəflər arasında paraflanan "Tərəfdaşlıq prioritetləri"nin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını bir daha müəyyənləşdirdi. "Tərəfdaşlıq prioritetləri" 2018-2020-ci illəri əhatə edir və bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Bu sənəd Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan vermiş oldu. Sənəddə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı müddəa da öz əksini tapdı. Yəni burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur.

Elə Bakıya son səfəri zamanı mətbuata bəyanatında da Donald Tusk bir daha ərazi bütövlüyü məsələsinə toxunaraq vurğuladı ki, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır.

Cənab Tusk həmçinin bəyan etdi ki, ötən il tərəflər tərəfdaşlıq üzrə prioritetləri müəyyən edib və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. Əlbəttə ki, bundan ilk növbədə hər iki tərəfin iqtisadiyyatı faydalanacaq və siyasi, biznes və mədəni münasibətlər dərinləşəcək. 2020-ci ildən Avropanı qazla təmin edəcək "Cənub qaz dəhlizi" isə tərəfdaşlığı daha yüksək səviyyəyə qaldıracaq.

Azərbaycanın nəqliyyat və logistika qovşağına çevrilməsi istiqamətində çox mühüm addımlar atdığını da vurğulayan diplomat Bakı Beynəlxalq Dəniz Ticarəti Limanını ölkəmizin Şərq və Qərb, eyni zamanda, Şimal və Cənub tərəfdaşları üçün iddialarının təcəssümü adlandırdı.

Təbii ki, bu gün Azərbaycan Avropa üçün əhəmiyyətli nəqliyyat dəhlizi rolunu oynayır. Asiyanı Avropa ilə birləşdirən yeni marşrutun, Şərqlə Qərb arasında körpü rolunu oynayacaq nəqliyyat dəhlizinin istifadəyə verilməsi Avropadan Asiyaya və geriyə malların daşınması vaxtını iki dəfə qısaldır. Bakı-Tbilisi- Qarsın istifadəyə verilməsi də Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafına müsbət təsir göstərib. Bu layihə bilavasitə Avropa İttifaqının da maraqlarına uyğundur.

Göründüyü kimi, Azərbaycan Aİ ilə öz münasibətlərini məhz çoxşaxəli sistem kimi formalaşdırır. Bu həm Azərbaycanın, həm də Avropa İttifaqının maraqlarına uyğundur. Həm hazırlanmaqda olan yeni saziş, həm də Aİ ilə Azərbaycan arasında münasibətlər gələcəkdə hər iki tərəfə çox ciddi müsbət imkanlar yaradacaq.

Ümumiyyətlə, ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün Avropa İttifaqı ilə Azərbaycan əlaqələrinin inkişafı çox önəmlidir. Yəni bu əlaqələr qarşılıqlı maraqlara söykənir. Avropa İttifaqı Azərbaycanı bir tərəfdaş kimi qəbul etməklə ölkəmizin dəyərlərinə böyük qiymət verir. Tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə sahib olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən əhəmiyyətli dividendlər vəd edir.

Beləliklə, Avropa İttifaqı ilə mühüm sazişin imzalanması ərəfəsində Donald Tuskun Azərbaycana səfəri ölkəmizin beynəlxalq münasibətlər sistemində yerini və rolunu siyasi-hüquqi baxımdan daha da möhkəmləndirdi. Bir daha bəlli oldu ki, Avropa İttifaqı da yeni sazişin imzalanmasında maraqlıdır və bu sənədin imzalanması ilə ikitərəfli münasibətlər bir çox sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoyacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Şəkinin ümumdünya irsi olması ilə bağlı bəyanat yayıb

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikasının "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda fond bu münasibətlə Azərbaycan xalqı ilə birlikdə bütün türk dünyasına təbriklərini çatdırıb.

Bəyanatda deyilir: "Öz mədəni abidələrini, mənəvi irsini qoruyub saxlamaq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mühüm əhəmiyyətə malik fəaliyyəti xüsusi qeyd edilməlidir. Onun bilavasitə təşəbbüsü və səyləri nəticəsində Azərbaycanın mədəniyyət abidələri və qeyri-maddi mədəni irs nümunələri UNESKO-nun siyahılarında öz layiqli yerini tutmuşdur.

Qədim İpək yolu üzərində yerləşən, tarixən tolerantlıq şəhəri kimi tanınan Şəki dünya mədəniyyətinə karvansaralar, məscidlər, körpülər, sənətkarlıq emalatxanaları kimi unikal memarlıq nümunələri, Qafqazın əsas ipək istehsalı mərkəzi olaraq qeyri-maddi mədəniyyət incisi kimi kəlağayı bəxş etmişdir. 1763-cü ildə Hüseyn xan tərəfindən inşa etdirilən, minlərlə müxtəlif rəngli şüşələrdən yığılmış və Azərbaycanın dekorativ tətbiqi sənət növü olan şəbəkə-pəncərələrdən istifadə edilmiş Şəki Xan Sarayı dünya əhəmiyyətli tarixi memarlıq abidəsidir. Bu qürurverici hadisə türk dünyasının bir parçası olan Azərbaycana məxsus nadir memarlıq abidəsinin beynəlxalq miqyasda daha da tanınmasına öz töhfəsini verəcək və türk dünyası ilə UNESKO arasında yeni-yeni əməkdaşlıq körpülərinin salınmasına səbəb olacaqdır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu inanır ki, yaxın gələcəkdə Naxçıvandakı "Möminə Xatun Türbəsi", Suraxanıdakı "Atəşgah", eləcə də işğal altında olan Dağlıq Qarabağ torpaqlarında yerləşən "Yuxarı Gövhər Ağa" məscidi, "Qarabağ Xan Sarayı" və s. kimi böyük memarlıq abidələri də UNESKO-nun Ümumdünya İrs Siyahısında öz əksini tapacaqdır".

# Azərbaycanın mədəni irsinə verilən dəyərin xoş sorağı dünyanı dolaşmaqdadır



Son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzu yüksəlməkdə, istər iqtisadi-siyasi, istərsə də sosial-mədəni sahələrdə uğurları artmaqdadır. Ölkəmizin mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində reallaşmışdır. Həmin əməkdaşlığın nəticəsidir ki, bu gün "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bütün bunlar, eləcə də Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bariz nümunəsidir.

Bu günlərdə həmin nümunələr sırasına Bakıda uğurla davam edən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" də daxil edilmişdir. Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Bilirik ki, unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı dövlətimizin daim diqqətində olmuşdur. Odur ki, UNESKO tərəfindən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin Ümumdünya İrsi elan edilməsi ictimaiyyətdə xoş əhvali-ruhiyyə yaratmışdır. Bu uğur və xoş xəbər münasibətilə Azərbaycan xalqını təbrik edən Prezident İlham Əliyev demişdir: "Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaralar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur. UNESKO tərəfindən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin Ümumdünya İrsi elan edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm".

Keçmişinə və milli-mədəni irsinə verilən bu yüksək dəyər münasibətilə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycanın şəhər və kəndlərini dolaşmaqda olan bu xoş xəbərlə xalqımızı təbrik etmişdir. Birinci vitse-prezidentin rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir: "Azərbaycan xalqı milli mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünyada tanıdılması istiqamətində böyük nailiyyətlər əldə edib. Bu gün isə biz Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınmasını qeyd edirik. Bu tarixi hadisə münasibətilə bütün xalqımızı səmimi-qəlbdən təbrik edirəm!"

Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya müzakirə edilərkən əvvəlcə Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının hesabatı dinlənilib. Bildirilib ki, Şəki şəhəri Azərbaycanın şimal-qərbində, Kiş çayının sol sahilində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə, paytaxt Bakı şəhərindən 370 kilometr məsafədə, Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində, mərkəzi regionlardan uzaqda yerləşir.

Xatırladaq ki, Şəkidə yerləşən Xan Sarayı dünya əhəmiyyətli tarix və memarlıq abidəsidir. XVIII əsrdə inşa edilən saray binası şəhərin şimal-şərq hissəsində, qala divarları ilə əhatə olunmuş ərazidə yerləşir. Otuz metr uzunluğu olan ikimərtəbəli bina 300 kvadratmetr sahəni əhatə edir. Saray altı otaq, dörd dəhliz və iki güzgülü eyvandan ibarətdir. Özündə xalq yaşayış binalarının xüsusiyyətlərini daşıyan saray binası Qafqazda XVIII əsr saray memarlığının ən gözəl nümunələrindən biri olmaqla həm də İslam Şərqinin memarlıq incilərindəndir. Şəhərin tarixi mərkəzi ilə birlikdə saray 120 hektar ərazini əhatə edir.

Bundan əlavə, hesabatda Şəki ilə bağlı faylın 2017-ci ildə Polşanın Krakov şəhərində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 41-ci sessiyasında ölkəmiz tərəfindən təqdim edilən "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyanın müzakirə olunduğu da diqqətə çatdırılıb.

Müzakirələr zamanı Küveytdən, Anqoladan, Çindən, Bəhreyndən, Braziliyadan, İndoneziyadan, Tanzaniyadan, Tunisdən, Qırğızıstandan, Bosniya və Herseqovinadan, Uqandadan, Norveçdən, Zimbabvedən, Burkina-Fasodan, İspaniyadan, Qvatemaladan, Avstraliyadan olan nümayəndələr bu nominasiyanın Ümumdünya İrs Siyahısına salınmasının vacibliyini vurğulayıblar.

Azərbaycan nümayəndəsi çıxış edərək bildirib ki, nominasiya yerli və beynəlxalq ekspertlər tərəfindən dəyərləndirilib. ICOMOS-un tövsiyələrindən irəli gələn məsələlərlə bağlı ciddi işlər görülüb. Yeni idarəetmə strukturu formalaşdırılıb və bir sıra qərarlar qəbul olunub.

Müzakirələrdən sonra "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya UNESKO-nun Ümumdünya İrs Siyahısına salınıb.

Bakının evsahibliyi etdiyi bu mötəbər tədbirdə dünya ictimaiyyətinin, habelə dünya kütləvi informasiya vasitələrinin də diqqətini cəlb edən xoş xəbər milyonların sevincinə səbəb olmuşdur. Bunu redaksiyamıza daxil olan müraciətlərdən, telefon bağlantılarından, internet əlaqələrindən və qəzetimizin internet poçtuna göndərilən ürək sözlərindən də aydın hiss etmək mümkündür. Məsələn, Rusiya Federasiyasının Uzaq Şərq vilayətinin Ussuri şəhərindən Azərbaycan diaspor mərkəzinin rəhbəri Mehman Həsənovun redaksiyamıza ünvanladığı teleqramında deyilir: "Hörmətli redaksiya! Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması, konkret desək, Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda təsdiqlənməsi bizi sevindirir. Bu xoş xəbəri Moskva televiziya kanallarından eşitmək isə bizə çox xoş oldu. Azərbaycanın adına, tarixinə, mədəni irsinə göstərilən qayğı və diqqətə görə Ussuridə yaşayan azərbaycanlılar adından, ilk növbədə, Azərbaycan dövlətinin rəhbərlərinə minnətdarıq və bu uğura görə nəinki Azərbaycanda yaşayan soydaşlarımızı, bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edirik".

Qeyd edək ki, Bakı Konqres Mərkəzində uğurla davam edən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının növbəti iclasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyasının UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi qonşu İran və Türkiyə mətbuatında da geniş işıqlandırılıb. "Anadolu" agentliyi, NTV və TRT Avaz kanalları və digər nüfuzlu xəbər mənbələri bu barədə türkdilli oxuculara ətraflı məlumat veriblər. Çox qürurverici haldır ki, Azərbaycanın mədəni irsinə verilən dəyərin xoş sorağı dünyanı dolaşmaqdadır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Qaval daşından Xan Sarayına

## Azərbaycan bəşəriyyətin irs siyahısında

*Əvvəli 1-ci səh.*

### Azərbaycan-UNESKO əməkdaşlığının tarixi

BMT-nin ixtisaslaşmış təşkilatı olan UNESKO dünyanın təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. 4 noyabr 1946-cı ildə 20 üzv dövlətlə rəsmi fəaliyyətə başlayıb. Azərbaycan hələ XX əsrin 60-cı illərindən Sovet İttifaqının tərkibində olarkən bu təşkilatın fəaliyyətində iştirak edirdi.

1967-ci ildə "Qafqaz xalqlarının ədəbiyyatı" seriyasından fransız dilində M.F.Axundovun komediyaları, "Dünya xalqlarının musiqisi" seriyasından Azərbaycan muğamlarından ibarət iki val və iki audio-kaset UNESKO tərəfindən buraxılmışdı.

1980-ci illərdə UNESKO-nun Parisdəki baş qərargahında "Azərbaycan xalçaları", "Azərbaycan əlyazmaları", Londonda isə "Bakının memarlığı" sərgiləri keçirilmiş, təşkilatın baş qərargahında Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışı olmuşdu. Bakıda "Dil və şəhər" və "Şərq xalça sənəti" beynəlxalq konfranslarının keçirilməsi üçün qurum Azərbaycana maliyyə yardımı göstərmişdi. 1983-cü ildə Azərbaycan hökuməti xalçaçı-rəssam Lətif Kərimovun toxuduğu, üzərində Memar Əcəmi Naxçıvaninin təsviri olan xalçanı Bakıya səfər etmiş UNESKO-nun Baş direktoru Amadu Mahtar M`Bou vasitəsilə təşkilata hədiyyə etmişdi.

Sovet İttifaqı dövründə Azərbaycanın UNESKO ilə əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdu. O, beynəlxalq qurumun Azərbaycan mədəniyyəti ilə bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak etmişdi. 1983-cü ildə Bakıda baş tutan "Şərq xalça sənəti" I Beynəlxalq Simpoziumu zamanı Heydər Əliyev UNESKO-nun Baş direktorunun xüsusi məsləhətçisi Federiko Mayorla görüşmüşdü. Bu dostluq əlaqələri Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin UNESKO ilə münasibətlərinə öz müsbət təsirini göstərmiş və beləliklə, Azərbaycanın təşkilatdakı uğurlarının təməli qoyulmuşdu.

1992-ci il 3 iyun tarixində Azərbaycan müstəqil ölkə olaraq UNESKO-ya üzv qəbul edildi. 1993-cü ilin dekabrında Prezident Heydər Əliyev Fransa Respublikasına rəsmi səfəri çərçivəsində qurumun Baş direktoru Federiko Mayorla görüşdü. 1996-cı ildə isə UNESKO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalandı. Həmin vaxtdan etibarən BMT-nin elm, təhsil və mədəniyyət üzrə bu nüfuzlu təşkilatı ilə əlaqələrimiz genişlənməkdədir. Bu əlaqələrin inkişafında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri danılmazdır. Azərbaycan-UNESKO münasibətlərinin inkişaf etdirilməsində Mehriban xanımın gördüyü işlər xüsusi əhəmiyyət kəsb edir. Birinci xanım 1995-ci ildən etibarən Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xəttilə ölkəmizin zəngin, çoxşaxəli mədəniyyətinin dünyaya tanıdılması istiqamətində uğurla fəaliyyət göstərir. Məhz bu fəaliyyətinə, Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində yorulmaz səylərinə görə Mehriban xanım 2004-cü il avqustun 13-də UNESKO-nun xoşməramlı səfiri adına layiq görüldü.

Məhz bundan sonra mötəbər beynəlxalq qurumla Azərbaycan arasındakı əlaqələr daha da inkişaf etməyə başladı. Heydər Əliyev Fondu və UNESKO arasında əməkdaşlıq çərçivəsində sazişlər imzalandı. Ölkəmiz təşkilatın müxtəlif konvensiyalarına qoşuldu. 2005-ci ildən Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi etdi. Azərbaycan 2005-2009-cu illərdə İcraiyyə Şurasının üzvü, həmçinin bir sıra digər alt komitələrin üzvü oldu. Hazırda Azərbaycan Respublikası UNESKO-nun bütün prioritet istiqamətləri üzrə təşkilatla sıx əməkdaşlığını davam etdirir.

Bu əlaqələrin nəticəsidir ki, Azərbaycanın bir sıra maddi və mənəvi mədəniyyət abidələri UNESKO tərəfindən bəşəriyyətin yüksək dəyərləri kimi qorunur. Bu uğur ölkə Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasətin və xalqımızın mədəniyyətinə göstərdiyi yüksək qayğının, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizin qeyri-maddi mədəni irsinin, xüsusilə muğam və aşıq sənətinin, milli adət-ənənələrimizin dünyada tanıdılması və təbliği istiqamətində gördüyü əvəzsiz xidmətlərin nəticəsidir. Mehriban xanım tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq onların dünyada tanıdılması istiqamətində böyük nailiyyətlər əldə edib. Məhz bu uğurlar sayəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESKO-nun siyahılarında yer almaqdadır.







Qeyd edək ki, xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına, üç maddi irs nümunəsi isə Ümumdünya İrs Siyahısına daxil edilib.

### Azərbaycanın mədəni irsi bəşəriyyətə böyük töhfələr verir

Azərbaycan xalqının qədim və zəngin tarixinin, mədəni irsinin mühüm bir qolunu muğam sənəti təşkil edir. Millətin milli özünüdərki, həyat tərzi və soykökünün göstəricisi olan bu zəngin sənət xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən böyük xəzinədir. Həm milli mədəniyyət, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının yüksək dəyəri nəzərə alınaraq 2003-cü ildə UNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olundu. İndi xalqımızın milli-mənəvi sərvəti olan muğamlarımız dünyanın əksər ölkələrində səslənir və böyük maraqla qarşılanır.

Muğam sənətinin dünyanın mədəni irs siyahısına daxil edilməsindən sonra yeni bir uğur əldə olundu. Azərbaycan aşıq sənəti 2009-cu ildə UNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edildi. Bu, milli irsimizin dünyəviliyini, bəşəriliyini, ona irqindən, dinindən asılı olmayaraq bütün millətlərin maraq göstərməsini təsdiqlədi. Azərbaycan xalq yaradıcılığının dünyada təbliğinə zəmin yarandı. Tezliklə aşıq sənətimiz dünyada tanıdılmağa başlandı, Parisin Luvr Muzeyində və Strasburq şəhərində Azərbaycan aşıqları konsert proqramları ilə çıxış etdilər.

Eyni tarixdə Novruz bayramı da çoxmillətli nominasiya kimi UNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil olundu.

Bunların ardınca diqqət Azərbaycan xalçasının möhtəşəmliyini dünyaya təqdim etməyə yönəldildi. Beləliklə, 2010-cu il Azərbaycan mədəniyyətində baş verən önəmli hadisələrdən biri kimi xalça sənətimizin UNESKO-nun bəşəriyyətin qeyri-maddi-mədəni irsinin reprezentativ siyahısına daxil edilməsi ilə yadda qaldı. Xalçaçılıq sənəti dünyanın bir sıra ölkələrində yayılsa da, Azərbaycanda toxunan və istehsal edilən xalçalar dünyada müqayisə edilməyən nümunələr kimi qəbul olunur. Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa edilməsi də bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir.

Sonrakı illərdə Azərbaycan tarı və onun ifaçılıq sənəti, Çovqan ənənəvi Qarabağ atüstü oyunu, Kəlağayı sənəti və simvolizmi, Lahıcın misgərlik sənəti, lavaş, dolma, kamança simli musiqi alətinin hazırlanma və ifaçılıq sənəti, "Kitabi-Dədə Qorqud", "Yallı ("Köçəri", "Tənzərə"), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edildi.

Bunlarla yanaşı, Azərbaycanın 3 tarixi maddi irsi də Ümumdünya İrs Siyahısındadır. İlk olaraq "İçərişəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi" 2000-ci ildə UNESKO-nun Ümumdünya İrs Siyahısına salındı. Lakin 2001-ci ildə Azərbaycanda baş verən zəlzələ nəticəsində abidələrə zərər dəydi və bununla bağlı bir sıra problemlərə görə 2003-cü ildə Ümumdünya İrs Komitəsinin 27-ci sessiyasında "İçərişəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi" UNESKO-nun Təhlükədə olan Ümumdünya İrs Siyahısına daxil edildi. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq İçərişəhərə və onun ərazisindəki tarixi-memarlıq abidələrinin qorunub saxlanmasına, mühafizəsinə və inkişafına dövlət qayğısı artırıldı, abidələr kompleksinin xarici təsirlərdən mühafizəsi üzrə uzunmüddətli strategiya çərçivəsində vahid siyasət həyata keçirildi. Görülən təxirəsalınmaz tədbirlər nəticəsində, 2009-cu ildə İspaniyanın Sevilya şəhərində keçirilən Ümumdünya Mədəni İrs Komitəsinin 33-cü sessiyası çərçivəsində qəbul edilən qərara əsasən, abidə UNESKO-nun Təhlükədə olan Ümumdünya İrs Siyahısından çıxarılaraq, əvvəlki statusu bərpa edildi.

2007-ci ildə Yeni Zelandiyanın Kraystçorç şəhərində keçirilən UNESKO-nun Ümumdünya Mədəni İrs Komitəsinin 31-ci sessiyası çərçivəsində Qobustan Qaya Sənəti Mədəni Landşaftı Ümumdünya İrs Siyahısında özünə yer tutdu.

Qeyd edək ki, 2013-cü ildə Parisdə UNESKO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 8-ci sessiyası çərçivəsində Azərbaycanın hər iki mədəni irs nümunəsinə "gücləndirilmiş mühafizə" statusu verilib.

### Dünyada analoqu olmayan memarlıq incisi

Bir neçə gün öncə UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında isə Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan Sarayı Ümumdünya İrs Siyahısına salındı.

Şəki Xan Sarayı analoqu olmayan, elə bu səbəbdən də dünyanı öz tamaşasına toplayan, sənətkarlıqla zəngin dünya əhəmiyyətli tarix və memarlıq abidəsidir. XVIII əsrdə inşa edilən saray binası şəhərin şimal-şərq hissəsində, qala divarları ilə əhatə olunmuş ərazidə yerləşir. Otuz metr uzunluğu olan ikimərtəbəli bina 300 kvadratmetr sahəni əhatə edir. Saray altı otaq, dörd dəhliz və iki güzgülü eyvandan ibarətdir. Özündə həm də xalq yaşayış binalarının xüsusiyyətlərini daşıyan saray binası Qafqazda XVIII əsrin saray memarlığının ən gözəl nümunələrindən biri olmaqla, həm də İslam Şərqinin memarlıq incilərindəndir. Şəhərin tarixi mərkəzi ilə birlikdə saray 120 hektar ərazini əhatə edir. Sarayı üzük qaşı kimi dörd bir tərəfdən möhtəşəm barılar əhatə edir. Barılar adi hasar kimi tikilməyib, onlar yazılıbdır. Xalq sənətkarları çox məharətlə bürc və ziqzaqlarla daşlardan "Məhəmməd Həsən xan" kəlməsi yazmışlar. Saray divarlarının ucaldılmasında çay daşlarından və çiy kərpicdən istifadə olunub.

Bura yolu düşən hər kəsi heyrətə gətirən, ilk növbədə, binanın fasadındakı şəbəkə pəncərə və qapılardır. Dünyada analoqu olmayan bu şəbəkələr xırda həndəsi fiqurlardan ibarətdir. Şəbəkəni yaradan ağac parçalarının aralarına müxtəlif rəngli şüşələr geydirilib. Hər bir kvadratmetrdə orta hesabla 5000, mürəkkəb yerlərdə isə 14000 ağac və şüşə element var. Rəngli şüşələrdən düşən işıq divarlarda və döşəmədə əks olunaraq əlvan şəbəkə kölgələri yaradır. Ən maraqlısı isə odur ki, şəbəkələrin hazırlanmasında və ümumiyyətlə, binanın tikintisində nə yapışqandan, nə də mismardan istifadə edilib. Burada ağac və şüşələrin ölçüsü zərgər dəqiqliyi ilə hesablanıb.

Binanın daxilində həndəsi və nəbati naxışlara, quş şəkillərinə, süjetli rəsmlərə - döyüş və ov səhnələrinə daha geniş yer verilib. Zövqlə işlənmiş taxçalar, güzgülü buxarılar əsl sənət nümunəsidir. Taxçalar Nizami Gəncəvinin "Yeddi gözəl", "Leyli və Məcnun" poemalarına çəkilmiş illüstrasiyalarla bəzədilib. Salonun qalan sahəsi isə rəsmli, ornamentli şəbəkələrlə işlənib. Otaqların divarları ilə yanaşı, tavanını da incə naxışlar bəzəyir. Sarayın altı otağından hər birisi öz mənsubluğuna uyğun olaraq həndəsi, nəbati və cəng-döyüş rəsmləri ilə bəzədilib, alt və üst mərtəbələrdə simmetrik salınmış otaqlar bir-birindən, əsasən divar rəsmlərinin süjetləri ilə fərqlənir. Qadınlara məxsus otaqların divarları bütünlüklə gülçiçəklə, ağac budaqlarına qonmuş cəh-cəh vuran bülbüllərlə, əfsanəvi quş və heyvan şəkilləri ilə bəzədilib.

Sarayın ikinci mərtəbəsindəki xanın otağında bütünlüklə döyüş səhnələri təsvir olunub və məzmunca çox müxtəlifdir. Xanların müxtəlif illərdə qəsbkarlara qarşı apardıqları döyüşləri, nizələrin uclarına taxılmış başlar, üzərlərində ələm, qılınc, aypara rəsmləri olan bayraqlar, realistcəsinə çəkilmiş dəhşətli döyüş səhnələri adamı duyğulandırır. İstirahət otağındakı rəsmlərin süjeti isə tam başqadır. Bunlar, əsasən ov, şikar məzmunludurlar. İkibaşlı əjdaha ilə bərabər, təkə, ceyran, cüyür, canavar və başqa şəkillər verilibdir.

Azərbaycan incəsənətinin möhtəşəm əsəri əsarət dövrünün acı zərbələrinə sinə gərib yaşadı, gözəllik və əzəmətini qoruya bildi. Vaxtilə müstəmləkəçilərin qəddar münasibəti ilə üzləşən sarayda mütəxəssislər dəfələrlə bərpa işləri apardılar və abidə ilkin halına qaytarıldı.

Bu gün Şəki Xan Sarayı öz gözəlliyi, qədimliyi, qeyri-adi memarlıq üslubu ilə turistləri ən çox özünə çəkən məkanlardandır. Sarayın qarşısında əkilmiş yüzillik xan çinarlar isə sanki tarixin səhifələrindən söz açır, gələnləri XVIII əsrə aparır.

Belə bir məkanın bəşəriyyətin İrs Siyahısında yer alması Azərbaycan üçün tarixi hadisədir. Bu tarixi hadisə münasibətilə dövlət başçısı İlham Əliyev, Birinci vitse-prezident, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva xalqımızı təbrik ediblər. İlham Əliyev təbrikində vurğulayıb ki, Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaralar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunurlar.

Deməli, bundan sonra Azərbaycanın mədəni irs nümunələri həm də UNESKO kimi mötəbər beynəlxalq qurumun nəzarəti altında qorunacaq. Eyni zamanda ölkəmiz, abidələrimiz və millətimiz dünyada tanınacaq, zəngin və qədim tariximiz hər yerə yayılacaq.

Dünya Azərbaycan adlı çoxvərəqli, tarixi kitabı maraqla, diqqətlə oxuyur. Bu dəfə Azərbaycanın Şəki səhifəsi vərəqlənib, öz möhtəşəmliyi ilə dünyanı fəth etdi. Qarşıda isə hələ oxunmamış, vərəqlənməmiş səhifələr var - Atəşgah, Naxçıvan Mavzoleyi, Hirkan Dövlət Qoruğu, Şuşa Tarix-Memarlıq Qoruğu... Və vaxt gələcək Azərbaycanın Dağlıq Qarabağ səhifəsi də vərəqlənib öz tarixiliyi, zənginliyi, təkrarolunmaz mədəni irsi ilə dünyanı heyran qoyacaq...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# REGİONLAR







# Halal zəhmət, xoş güzəran

Bol məhsullu taxıl zəmiləri göz işlədikcə uzanıb gedir. Dənə dolub ağırlaşan sünbüllər asta mehin təsiri ilə dəniz kimi dalğalanır. Torpaqdan güc alıb bara dolan sarı sünbüllər sanki torpağa minnətdarlıqla baş əyir. Bərəkət dənizini seyr etdikcə qeyri-ixtiyari adamın qəlbindən xoş duyğular keçir. Taxılımızın, çörəyimizin bolluğu ölkəmizin iqtisadi qüdrətini şərtləndirən mühüm amillərdəndir. Bu şərəfli məqsəd uğrunda çalışan, zəhmət çəkən, tər axıdan hər kəsin əməyi alqışa layiqdir.

Bərdə rayonunun Ərəblər kəndində "Kəhrəba" fermer təsərrüfatının taxıl zəmisinin kənarındayıq. Həmsöhbətimiz təsərrüfatın rəhbəri Salman Musayevdir. Ali təhsilli kənd təsərrüfatı mütəxəssisi olan Salman Musayev uzun illərdir ki, mehrini torpağa salıb. Böyük həvəslə əkib, biçir.

*Salman Musayev:*

- Torpağın mayası halallıqdır. O heç zaman borclu qalmır. Çəkilən zəhmətin, axıdılan alın tərinin əvəzini həmişə birə min qaytarar. Biz əsasən taxıl toxumçuluğu ilə məşğuluq. Demək olar ki, artıq bu sahə üzrə ixtisaslaşmışıq. Keçən il 87 hektar sahədə taxıl əkib-becərdik. Hər hektardan 47 sentner məhsul götürdük. İstehsal etdiyimiz 310 ton toxumluq taxılın çox hissəsini rayonun təsərrüfatlarına satdıq. Qonşu rayonlardan yaxşı toxum sorağına gələnləri də əliboş qaytarmadıq. Şəmkirdən, Kürdəmirdən gəlib, bizdən toxum alan fermerlər zəng vurub razılıq edirlər.

Bu il taxıl əkini sahələrini genişləndirib, 117 hektara çatdırmışıq. Becərmədə bütün aqrotexniki tələblərə ciddi əməl olunmuşdur. Nəticə sevindiricidir. Zəmilərin məhsuldarlığı keçən ildəkindən xeyli çox olacaq. Biçinə başlamışıq. İlkin hesablamalar göstərir ki, hər hektardan azı 50 sentnerdən çox taxıl götürə biləcəyik.

Çəkdikləri zəhmətin fərəhli bəhrələrindən həvəslə danışan Salman Musayevin söhbətindən məlum oldu ki, təsərrüfatın üzvləri pambıqçılıqda və baramaçılıqda da böyük uğurlara imza atırlar. Keçən il pambıq tarlalarının hər hektarından orta hesabla 36 sentner "ağ qızıl" götürüblər. Bu il isə 42 hektar sahədə pambıq əkib-becərirlər. Artıq ikinci kompleks becərmə başa çatmaq üzrədir. Hədəf cari ildə hər hektarın orta məhsuldarlığını azı 40 sentnerə çatdırmaqdır.

Dövlətin aqrar sektorun inkişafına verdiyi dəstəkdən güc alan bu hünərvər əmək kollektivi baramaçılığa da böyük önəm verir. Fermer təsərrüfatının sahələrində Çin Xalq Respublikasından gətirilmiş 15 min məhsuldar tut tingi əkilmişdir. Bu il azı 250 kiloqram keyfiyyətli barama tədarük etmək əzmindədirlər. Artıq barama tədarükünə başlanmışdır. İlk nəticələr isə sevindiricidir.

Halal zəhmət Salman Musayevi və rəhbərlik etdiyi kollektivin üzvlərini firavan həyata, xoş güzərana qovuşdurub. İstehsal etdikləri bol məhsulla ölkə iqtisadiyyatının möhkəmlənməsinə sanballı töhfələr verən bu zəhmət adamları sərf etdikləri əməyin qarşılığında yaxşı qazanc əldə edirlər.

Salman Musayev söhbətini belə yekunlaşdırdı: .

- Bütün uğurlarımızın mayasında dövlətimizin güclü dəstəyi, kənd əməkçilərinin də böyük hamisi olan Prezident İlham Əliyevin qayğısı və diqqəti dayanır. İstehsal etdiyimiz taxılı, pambığı, baramanı real bazar qiymətlərinə satıb böyük mənfəət qazanırıq. Bütün bunlardan əlavə, dövlət istehsal etdiyimiz məhsula görə bizə yüksək səviyyədə subsidiya verir. Təkcə keçən il 35 min manata yaxın subsidiya almışıq.

***Lazım QULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Keyfiyyətli toxum bol məhsula təminatdır



Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında Qobustan rayonunun da özünəməxsus yeri var. Xüsusilə daxili bazarın ət məhsulları ilə təminatında. Əkin sahələrinin əsasən dəmyə olması da kənd sakinlərinin əzmkarlığına təsir edə bilmir. Zəhmətə bağlılıq, başlanan işi sona çatdırmaq sonda öz sözünü deyir. İndi rayon ərazisində əkilməmiş sahə demək olar ki, yoxdur. Sanki hər kəs bir-birinin bəhsinə durub.

Qobustan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Həsənağa Hüseynov deyir ki, cari ilin məhsulu üçün keçən ilin payızında 31 min 641 hektar sahədə taxıl əkilib. Bunun 22 min 258 hektarı buğda, 9 min 382 hektarı arpadır. Bundan əlavə, 330 hektar noxud, 107 hektarda kartof, 8 hektardan çox yonca, 40 hektarda tərəvəz yetişdirilir.

Artıq rayonun aran yerlərində taxıl biçini başa çatıb. Orta məhsuldarlıq hektarda 24 sentner olub. Rayonun şimal hissəsində yerləşən dağlıq ərazilərdə isə məhsuldarlığın aran yerlərlə müqayisədə 2-3 sentner çox olacağı gözlənilir.

Biçinlə bağlı texniki məsələlər yüksək səviyyədə təmin olunub. Taxıl sahələrinə 60-a yaxın kombayn çıxarılır. Onun 11-i "Aqrolizinq" ASC-nin Qobustan filialına məxsusdur. Qalanı fiziki şəxslərin lizinq yolu ilə güzəştli qiymətlərlə aldıqları kombaynlardır.

Məhsuldarlığın yüksək olması üçün vacib amillərdən biri gübrələrdən düzgün istifadədir. Bu məqsədlə fermerlərə 3500 ton ammofos və azot gübrələri, alaq otlarına qarşı mübarizə üçün herbisidlər verilib.

Sahələrdən bol və keyfiyyətli məhsulun götürülməsi təkcə qulluqdan asılı deyil. Səpilən toxumun yerli şəraitə uyğun olması da əsas şərtlərdən biridir. Ona görə də Qobustanda toxumçuluğa ciddi diqqət yetirilir. Toxumçuluqla məşğul olan fermerlərin əraziləri əsasən dağlıq sahələrdə yerləşir. Rayon üzrə bir Bölgə Təcrübə Stansiyası və 15 fiziki şəxs toxumçuluqla məşğuldur. Dərəkənd kəndindəki toxumçuluq təsərrüfatında hektardan 30-35 sentner məhsul götürülür. Bu da dəmyə şəraitində yetişdirilən taxıl üçün yaxşı göstəricidir. Bu il toxumçuların sahələrinə Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən də baxış keçirilib. Görülən işlər müsbət qiymətləndirilib.

Rayonda əsasən mərkəzləşdirilmiş və yerli şəraitə uyğunlaşdırılan "Qobustan" sortuna üstünlük verilir. Həmin sort əkilən yerlərdə məhsuldarıq daha yüksəkdir. "Aran", "Qızıl buğda" sortu da əlverişli hesab olunur.

Həmsöhbətim Həsənağa Hüseynov onu da qeyd etdi ki, bəzi fermerlər əsasən tədarük etdikləri məhsulun toxumlarını əkirlər. Bu da lazımi nəticə vermir. Biçin vaxtı, taxılın qurudulması zamanı və qablaşdırmada müəyyən çətinliklər yaşanır. Aqrar sahədə çalışan belə insanların maarifləndirilməsinə ehtiyac var.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***



# Sumqayıtda ictimai nəqliyyat üçün ayrıca zolaqlar yaradılır

Son illər Sumqayıtda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Şəhərin küçə və prospektlərində asfalt örtüyü yenilənir, yolların əhatə dairəsində olan kommunikasiya xətləri dəyişdirilir, ətrafları yaşıllaşdırılır, dayanacaqlar təzələnir.

Sumqayıtda daha bir yeniliyə imza atılıb, müntəzəm sərnişindaşımanı həyata keçirən avtobuslar üçün ayrıca zolaqlar yaradılır. İlk olaraq Sülh prospektində salınan bu zolaqlar gələcəkdə bütün şəhər yollarında salınacaq. Məqsəd sərnişin və avtobusların hərəkətinin rahatlığını təmin etməkdir. Onu da qeyd edək ki, avtobuslar üçün ayrılmış həmin zolaqlara keçən digər nəqliyyat vasitələri yol polisi tərəfindən cərimələnəcək.

Ümumiyyətlə, Sumqayıt şəhərində nəqliyyat infrastrukturu yenilənir, marşrut xətlərində fəaliyyət göstərən avtobuslar müasir tələblərə cavab verən nəqliyyatla əvəzlənir. Son zamanlar şəhərin 19 marşrut xəttinə müasir tələblərə cavab verən 206 avtobus verilib. Yaxın gələcəkdə dayanacaqlarda məlumat bildirən elektron aparatların da quraşdırılması nəzərdə tutulur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



# Uğurlardan arxayınlaşmırlar

Füsunkar təbiəti, buz bulaqları, yaşıl meşələri, zəngin flora və faunası ilə fərqlənən Gədəbəydə işgüzar insanların fədakarlığı sayəsində hər ili uğurlu göstəricilərlə yola salırlar. İndi rayonda kimi axtarsan əkin sahələrində taparsan. Rayon sakinləri əkib becərdikləri məhsulları vaxtında toplamaq üçün hər səhər tezdən sahələrə çıxıb, var-qüvvələri ilə çalışırlar.















Rayon icra hakimiyyətində, aqrar inkişaf mərkəzində qazanılan nailiyyətlərdən, qarşıda duran vəzifələrdən söz açanda bizə dedilər ki, əvvəlki illərdə olduğu kimi, cari ilin ötən aylarında da rayonda uğurlu göstəricilər əldə edilmiş, ölkə rəhbərinin sərəncam və tapşırıqları uğurla icra olunmuşdur. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə təkcə cari ilin birinci rübündə ümumdaxili məhsul istehsalının həcmi 6,4 faiz çox olmuş, sənaye məhsulu istehsalı 5,6 faiz artaraq 38933,4 min manat təşkil etmişdir.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayon üçün nəzərdə tutulmuş 16 tədbirin icrası ilə bağlı layihələrin həyata keçirilməsinə başlanılmışdır. Abadlıq işləri çərçivəsində şəhərin Səməd Vurğun küçəsində səkilər yenidən qurulmuş, yüksək gərginlikli elektrik xətləri yer altına keçirilmiş, istinad divarları üzlənmiş, ticarət obyektləri əsaslı təmir edilmiş, Dilarə Əliyeva küçəsində genişmiqyaslı işlər aparılmışdır.

Daxili imkanlardan istifadə etməklə sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı tədbirlər davam etdirilmişdir. Nəticədə ilin başlanğıcında rayon üzrə iqtisadiyyatın müxtəlif sahələrinə 225 min manat investisiya cəlb edilmişdir. Həmin investisiya hesabına Maarif kəndində "Kiçik Qafqaz" MMC-yə məxsus illik istehsal gücü 1 milyon dekalitr olan, 47 nəfərin işləyəcəyi yeni istehsal sahəsi, Miskinli kəndində illik istehsal gücü 500 min dekalitr olan və 25 nəfərin işləyəcəyi süfrə suları istehsalı müəssisələri yaradılmışdır.

Həyata keçirilən tədbirlər heyvandarlığın inkişafını da sürətləndirir. Hazırda rayonda 45208 baş qaramal, 233228 baş isə davar saxlanılır. İlin əvvəlindən keçən dövr ərzində 22,5 min sentner ət, 46,9 sentner süd istehsal edilmişdir. Heyvandarlığın inkişafı istiqamətində qabaqcıl texnologiyalara üstünlük verilmiş, süni mayalanmadan əldə olunan balaların sayı artmışdır. Mal-qaranı xəstəliklərdən qorumaq üçün rayon baytarlıq idarəsi nəzarəti gücləndirmişdir.

Bu il rayon məşğulluq mərkəzinə müraciət edənlərin 283 nəfəri müxtəlif idarə, müəssisə və təşkilatlarda işlə təmin olunmuşdur. Rayon məşğulluq mərkəzində qeydiyyatda olan rayon sakinləri üçün təşkil edilmiş təlimlər də başa çatmış, 49 nəfər işaxtaran aktivlərlə təmin olunmuşdur. Bundan başqa rayonda əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə 120 nəfərlə bağlanmış müqavilə "DOST İş Mərkəzi" MMC-yə göndərilmişdir. Vətəndaşların işə qəbulu zamanı şəffaflığın təmin edilməsi məqsədilə yaradılan komissiya həyata keçirilən işləri nəzarətdə saxlayır.

Rayonun yol infrastrukturunun yenilənməsi istiqamətində də işlər davam etdirilir. Hazırda dövlət başçısının sərəncamı ilə ayrılmış vəsait hesabına Arıqdam-Söyüdlü-Soyuqbulaq və Gədəbəy-Novosaratovka-Qaravəlilər-İsalı-Zamanlı avtomobil yolları yenidən qurulur.

Məlum olduğu kimi, Gədəbəy həm də turistlərin maraq göstərdikləri məkanlardandır. Hər il bu səfalı bölgəyə minlərlə yerli və xarici turist gələrək, yay istirahətini burada keçirir. Onların istirahətini mənalı etmək üçün də şərait yaradılmışdır. Belə ki, ilk dəfə olaraq milli-mədəni dəyərlərimizi, tariximizi və çoxsaylı ənənələrimizi özündə əks etdirən Milli Yaylaq Festivalı keçiriləcəkdir. Festivalla əlaqədar rayonun Miskinli yaylağının ərazisində orijinal üslubda "Yaylaq Yurdu" adlı etnoqəsəbə yaradılmışdır.

Beləcə, dağlar qoynunda yerləşən Gədəbəy rayonu gündən-günə inkişaf edir. Bu inkişaf rayon sakinlərinin doğma yurda olan məhəbbətlərini daha da artırır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# “İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar” adlı kitabın təqdimatı olub

İyulun 10-da İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının təşkilatçılığı ilə iordaniyalı tarixçi və jurnalist Ömər əl-Armutinin müəllifi olduğu “İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar” adlı kitabın təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, kitab Azərbaycan dilinə İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının təşəbbüsü ilə tərcümə olunub.

Kitabın məsləhətçisi Rafiq Əliyev tədbirdə çıxış edərək bildirib ki, bu, Ömər əl-Armutinin ölkəmizlə bağlı ikinci nəşridir. O, Azərbaycan ilə İordaniya arasındakı münasibətlərdən, ölkələrimizin oxşar cəhətlərindən danışıb.

R.Əliyev nəhəng güc sahiblərinin beynəlxalq hüququn normalarına məhəl qoymadığını, nəticədə qanlı müharibələrin, vətəndaş qarşıdurmalarının baş verdiyini söyləyib. O deyib ki, ikili standartlar artıq beynəlxalq münasibətlərdə bir normaya çevrilməkdədir. İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının üzvləri bu kimi xoşagəlməz hallarla mübarizəyə töhfə verə bilərlər.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Bəhruz Həsənov deyib ki, Azərbaycan İslam dünyasında həmrəyliyin yaradılmasında böyük səylər nümayiş etdirir. Azərbaycan müsəlman ölkələri, o cümlədən İordaniya ilə 25 ildən artıqdır ki, bir çox sahələrdə uğurlu əməkdaşlıq edir. Kitabda da qeyd olunduğu kimi, əsası ümummilli lider Heydər Əliyev və Kral Hüseyn bin Talal tərəfindən qurulmuş Azərbaycan-İordaniya dostluq və əməkdaşlıq əlaqələri bu gün yüksələn xətt üzrə davam edir. Azərbaycan Prezidenti İlham Əliyev və İordaniya Kralı II Abdullah dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirirlər.

Bəhruz Həsənov bildirib ki, Ömər əl-Armutinin müəllifi olduğu kitabda onun Azərbaycana olan sevgisi açıq şəkildə görünür. O, ölkəmizə sevgisini poeziya dilində vəsf edib.

Prezident Administrasiyasının məsul əməkdaşı hər iki ölkənin jurnalistləri arasında qurulan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsinin vacibliyini bildirib, İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının bu istiqamətdə xidmətlərini qeyd edib.

İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri və kitabın redaktoru Fazil Abbasov yeni nəşrin önəmindən danışıb. O deyib ki, Ömər Əl-Armutinin dörd il əvvəl işıq üzü görmüş “Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq” kitabı ötən il Assosiasiya tərəfindən tərcümə edilərək nəşr olunub.

Fazil Abbasov bildirib ki, bu gün İslam dəyərlərinə qarşı aparılan çirkin kampaniyanın qarşısının alınmasında müsəlman ölkələrinin, o cümlədən bu ölkələrin jurnalistlərinin həmrəyliyinə böyük ehtiyac var. Bu gün bu həmrəylik Azərbaycan və İordaniya tərəfindən layiqincə nümayiş etdirilir.

Assosiasiyanın sədri vurğulayıb ki, bu kitabda təkcə müəllifin öz düşüncələri deyil, digər iordaniyalı müəlliflərin, jurnalistlərin fikirləri də öz əksini tapıb.

Nəşrin digər məsləhətçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva bildirib ki, bu kitab Azərbaycan dövlətinə və xalqına olan sevginin nəticəsidir. Bu nəşr vasitəsilə Azərbaycan mədəniyyəti və tarixi İordaniyada geniş təbliğ olunur. Bu işin həyata keçməsində İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının mühüm xidmətləri var.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov qeyd edib ki, Azərbaycan və İordaniya müxtəlif sahələrdə əməkdaşlıq edirlər. Bu əməkdaşlıq xalqlarımızın daha da yaxınlaşmasına yol açıb. Ömər əl-Armuti kitablarında Azərbaycanın üzləşdiyi problemlərlə yanaşı, əldə etdiyi nailiyyətləri də iordaniyalılara çatdırır.

Kitabın müəllifi, iordaniyalı tarixçi-yazıçı Ömər əl-Armuti bildirib ki, “Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq” kitabından sonra “İordaniya-Azərbaycan əlaqələrində önəmli məqamlar” adlı yeni nəşri onun Azərbaycana olan sevgisini sübut edir. Yeni kitabda Azərbaycan-İordaniya dostluq və qardaşlıq münasibətlərindən bəhs olunur. O qeyd edib ki, bu kitabları yazmaqda məqsədi ərəb ictimaiyyətinə Azərbaycan həqiqətləri barədə ətraflı məlumat verməkdir.

Ömər əl-Armuti vurğulayıb ki, Dağlıq Qarabağda törədilən faciələr İslam dünyasına qarşı hücumların bir hissəsidir. Bu səbəbdən İslam həmrəyliyi daha da möhkəmləndirilməlidir.

Tədbir müzakirələrlə davam edib.

# ABŞ-ın 5 universitetini qazanmış Bakı Ali Neft Məktəbinin məzunu İlqar Bağışov: “Ən böyük arzum professor olmaqdır”

Bakı Ali Neft Məktəbinin (BANM) Neft-qaz mühəndisliyi ixtisası üzrə yenicə məzun olmuş İlqar Bağışov BP-dən iş təklifi almağına baxmayaraq, təhsilini davam etdirməyə üstünlük verib və tam təqaüdlə magistraturaya qəbul olunduğu ABŞ-ın 5 universitetindən birini - Ostindəki Texas Universitetini seçib. O, həmçinin bu universitetdə yüksək maaşla professor köməkçisi olaraq çalışacaq. İlqarın qəbul olduğu digər ABŞ universitetləri bunlardır:

- **Tulsa Universiteti (tam təqaüd)**
- **Vayominq Universiteti (tam təqaüd)**
- **Kolorado Qazma Məktəbi**
- **Pensilvaniya Dövlət Universiteti**

Həmin gənclə müsahibəni sizə təqdim edirik.



***- BANM-dəki beş illik bakalavr təhsilinin sizin üçün hansı faydaları oldu?***

- Beş illik təhsilin ən faydalı cəhəti təhsilin ingiliscə olması və ali məktəbdə yaradılmış rəqabətli mühit idi: bir-birimizlə yarışa girib daha yaxşı olmaq üçün inkişaf edirdik.

***- Niyə BANM tələbələri məzun olmamış iş təklifi alır?***

- BANM-dəki təhsil müasir dünya standartlarına cavab verir, ingilis dilində ən son yenilənmiş dərsliklərdən istifadə edirik, yaxşı müəllimlərdən dərs alırıq. Bundan əlavə, rəhbərliyin işə ciddi yanaşması nəticəsində yerli və beynəlxalq şirkətlərlə əməkdaşlıq qurulub, həmin şirkətlərin təcrübə proqramlarında, istehsalat təcrübələrində iştirak edirik. Məsələn: BP-nin təcrübə proqramında iştirak edib yaxşı performans göstərdiyim üçün həmin şirkətdən iş təklifi almışdım.

***- Fasilə vermədən Amerikada magistratura dərəcəsi üzrə oxumağa sizi nə vadar etdi?***

- İnsanın ən enerjili vaxtı gənc yaşlarıdır, bu yaşı faydalı dəyərləndirmək istədim, mühəndislik sahəsində ABŞ-ın ən yaxşı universitetlərinə sənədlərimi yolladım, qəbul edildim, öz sahəsinin lideri olan Ostindəki Texas Universitetini seçdim.

***- Necə oldu ki, Ostindəki Texas Universitetinin professorundan iş təklifi aldınız?***

- Bakıda EiLink (Education Industry Link) Tədqiqat və İnkişaf Mərkəzi üçün seçilmişdim, bir ildən çox orada ingiliscə tədqiqat işi üzərində işlədim, həmin layihə “Termodinamikanın modelləşdirilməsi” haqqında idi, sonra tədqiqat işini Amerikalı alim Ryosuke Okunoya yollamışdım. Dr. Okuno işimi çox yüksək qiymətləndirdi və bildirdi ki, bakalavr pilləsində olan hər tələbə belə işləyə bilmir. Sonra o, mənə magistratura təhsilimi Amerikada davam etdirməyi və yüksək məvacib qarşılığında iş təklif elədi.

***- Sizi digər BANM tələbələrindən nə fərqləndirir, qazandığınız uğurları nəyə borclusunuz?***

- Əslində, dərindən baxanda xüsusi fərqləndirəcək səbəb yoxdur. BANM-də təhsil səviyyəsi yüksəkdir, təhsil sistemi də tələbkardır, burada xeyli yaxşı tələbələr var. Sadəcə yaşıdlarımdan fərqli olaraq ingilisdilli tədqiqat işi aparmağa qərar verdim, bu, olduqca məsuliyyətli və ağır iş idi. Günlərlə gecə-gündüz tədqiqat işinin üzərində çalışdım və bir ildən çox çəkdiyim zəhmətin bəhrəsini gördüm. Tezliklə həmin işi məqalə kimi dərc etdirməyi planlaşdırıram.

***- Gələcək üçün hədəf və planlarınız nədir?***

- Gələcək üçün əsas hədəfim Amerika təhsil sistemində özümü daha da inkişaf etdirib ölkəmə dönməkdir. Daha sonra BANM-də mühəndislik sahəsi üzrə tədqiqatlarımı davam etdirərək doktorluq dərəcəsinə yüksəlmək, ali məktəbdə bu sahəyə maraq yaratmaq və onu inkişaf etdirməkdir.

***“Azərbaycan”***

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 11-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller aparacaqlar.

# Dialoq və həmrəylik siyasəti

## Azərbaycanın sivil dövlət-din münasibətlərinə görə dünyanın əksər ölkələri üçün örnək olması həm də milli mətbuatımızın fədakar əməyinin, maarifçilik əqidəsinə, milli məsləkə sadiqliyinin nəticəsidir

Milli mətbuatımızın əsasının qoyulduğu 1875-ci ildən üzübəri Azərbaycan mətbuatının dinə münasibəti kifayət qədər aydın və birmənalı olub. Əlbəttə, mətbuat tariximizdə bir o qədər nəzərə çarpmayan müəyyən xırda istisnalar rastımıza çıxa bilər, amma geniş mənada götürdükdə Azərbaycan mətbuatı heç zaman dini radikalizmə yuvarlanmayıb. Eləcə də dövlət quruluşunda qeyri-dinyəviliyin təbliğini özünün ardıcıl fəaliyyət xətti kimi götürməyib.

Tarixin müəyyən dönəmlərində əlverişli vəziyyətlərdən yararlanmağa çalışaraq ortaya çıxmağa çalışan radikal dini baxışlı qrupların cəmiyyətdə özünə dayaqlar tapıb irəli gedə bilməməsinin əsas səbəblərindən biri də, təbii ki, mətbuatın, xalqın işıqlı insanlarının bu ziyanlı təmayülə dəstək verməməsi olub. Bu gün Azərbaycanın sivil dövlət-din münasibətlərinə görə dünyanın əksər ölkələri, xüsusilə müsəlman ölkələri üçün parlaq örnək olması da milli mətbuatımızın fədakar əməyinin, maarifçilik əqidəsinə, milli məsləkə sadiqliyinin nəticəsidir.

Azərbaycan mətbuatı XX əsrin əvvəllərində də, sovet dövründə də, müstəqillik illərində də, hətta ayrı-ayrı firqə maraqlarını əks etdirsə belə, bir ümumi məsələdə daim həmrəylik göstərib, müştərək istiqamətdən kənara çıxmayıb. Bu, xalqın maarifləndirilməsi, mütərəqqi dəyərlərin, müasir inkişafın təbliği xəttidir. Böyük fikir adamı Həsən bəy Zərdabinin 1875-ci ilin 22 iyulunda “Əkinçi” qəzeti ilə düşüncələrdə səpdiyi toxumların bu cəhətdən də xeyli sağlam olduğunu və cəmiyyətimiz üçün faydalı bəhrələr verdiyini söyləyə bilərik.

Sovet dövründə bizlərə uzun illər materialist filosof, az qala ateist kimi təqdim edilmiş Zərdabi, eləcə də Mirzə Cəlil, Sabir kimi dühalarımız qətiyyən İslam dininə qarşı deyildilər. Onlar millətin inkişafında milli-dini dəyərlərə, əslində, böyük önəm verirdilər. Amma cəmiyyətin yeniləşməsi, inkişaf etməsi üçün Qərb mədəniyyətindən də yardımçı vasitə kimi istifadəni vacib sayırdılar. Bu düşüncə adamları İslam dininə deyil, xürafata, dinə yanlış münasibətin geniş meydan açdığı cəhalətə, nadanlığa, cəmiyyəti axsadıb inkişafdan saxlayan radikal dini baxışlara qarşı idilər.

Görkəmli alman mütəfəkkiri Vamberin “İslam” kitabı ilə yaxından tanış olan Zərdabi onun Şərq və Qərb cəmiyyətləri ilə bağlı fikirlərini “Əkinçi”də dərc etdirmişdi. Hələ XIX əsrin sonlarında belə mövzularda müzakirə ənənələrinin, demək olar ki, yayılmadığı, bu ənənəni yarada, dinə düzgün münasibət formalaşdıra biləcək təhsilli insanların sayının kifayət qədər az olduğu toplumda “əsl İslam hansıdır?” sualına cavab tapmağı özünə borc bilmişdi. Vamberin məlum kitabından “Əkinçi”də dərc olunan fikirlər, din və cəmiyyət, din və tərəqqi, din və siyasət və s. məsələlərin, Şərqlə və Qərb arasında bu günə qədər davam edən inkişaf fərqlərinin, nəhayət əsl İslamın düzgün dərkindən ötrü oxucular üçün bir növ aydınlaşma məqamı idi.

Bütün cəhətləri ilə din bir mənəviyyat hadisəsidir. Tarixin heç bir dövründə müxtəlif mədəniyyət vasitələrinin heç biri insanların ruhani dünyasına din qədər dərindən nüfuz edə bilməyib. Elmi-texniki tərəqqinin gücü, geniş areallarda yayılmış siyasi ideologiyalar, sərt qadağalar dini dəyərləri insanların düşüncəsindən sıxışdırıb kənara çıxara bilməyib. İnanc əsrlər boyu insanlar üçün həm də bir milli dəyər faktoruna çevrilib. Milli-mənəvi dəyərlərin ayrılmaz tərkib hissəsi olub. Bir çox milli kodları, mental düşüncələri, adətləri, cəmiyyət həyatının müxtəlif sahələri üzrə formalaşmış tarixi ənənələri özündə ehtiva edib. Bu proseslərin uğurlu gedişində şübhəsiz ki, Azərbaycan mətbuatının əlahiddə xidmətləri, düzgün yanaşması olub.

Bu gün Azərbaycan dövlətinin dinlə bağlı həyata keçirdiyi siyasətin ana xətti də dini bir dəyərlər toplusu kimi qorumaq, öyrənmək və onun üstünlüklərindən cəmiyyətin inkişafı, insanların mənəvi-əxlaqi tərbiyəsi, milli vəhdətimiz üçün bəhrələnməkdir. Bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi xətdir. Azərbaycan dövləti ölkəmizin ərazisində tarixən mövcud olmuş bütün dinlərə böyük önəm verir. Dini mənsubiyyətindən asılı olmayaraq hər bir ölkə vətəndaşının vicdan azadlığının təminatçısı rolunda çıxış edir, respublikamızda fəaliyyət göstərən dini icmaların fəaliyyətinə şərait yaradır. Dövlət islam dininin əsas simvollarından olan məscidlərimiz kimi Azərbaycandakı kilsələrin, sinaqoqların tikintisi, təmiri, abadlığı qayğısına da qalır. Azərbaycan KİV-də bu proseslər barədə mütəmadi araşdırmalar, şərhlər, reportajlar hazırlanır, ictimaiyyət yetərincə dolğun məlumatlandırılır.

İslam dini bizim üçün ona görə xüsusi əhəmiyyət kəsb edir ki, Azərbaycan da müsəlman ölkəsidir, islam dünyasının əhəmiyyətli bir parçasıdır. İslam dini cəmiyyətimiz üçün sadəcə dini inanc, rituallar deyil, milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi kimi milli özünəməxsusluğumuzu qoruyan gücdür. Dövlət bayrağımızdakı üç rəngin - mavi türkçülüyün, qırmızı müasirliyin və yaşıl islamın ideya müəlliflərindən olan Əli bəy Hüseynzadə “Türklər kimdir və kimlərdən ibarətdir” adlı məqaləsində göstərirdi ki, islam dinini bizə ərəblər gətirsə də, xalq olaraq milli özünəməxsusluğumuzun qorunmasında bu dinin çox böyük rolu olub. Əsrlər ərzində məhz bu dinin qoruyucu gücü sayəsində başqa böyük xalqların içində əriyib itməmişik. Qloballaşan dünyamızda milli özünəməxsusluğumuzun qorunması və inkişafı üçün islami dəyərlərin gücü yenə əsas istinad mənbələrimizdəndir. Ona görə də bu gün Azərbaycan dövləti dini dəyərlərimizə nəinki sahib çıxır, həm də müasir dünyada islama düzgün münasibətin formalaşması üçün intellektual məkan, düşüncə mərkəzi rolunu oynayır.

Bu gün Azərbaycan dövləti həyata keçirdiyi uğurlu din siyasəti ilə bir çox ölkələrə örnək ola biləcək mükəmməl bir model formalaşdırır. Bu model iki əsas istiqamətə söykənir. Bunlardan birincisi dinlər və böyük mənada mədəniyyətlər arasında dialoqun qurulması, digəri isə islam dünyasının öz daxilində də həmrəyliyin əldə edilməsidir. Azərbaycan mətbuatı bu mühüm proseslərin əsas təbliğatçı, təşviqatçısı kimi sağlam mövqe nümayiş etdirir, həyata keçirilən siyasətin mahiyyətini düzgün olaraq ictimaiyyətə çatdırır.

Dinlər və mədəniyyətlərarası dialoq üçün Azərbaycanın son onilliklərdə həyata keçirdiyi ardıcıl təşəbbüslər, 2008-ci ildə bu məqsədlə irəli sürülən və öz uğurları ilə artıq beynəlxalq bir platformaya çevrilən “Bakı prosesi” çərçivəsində görülmüş işlər yeni minilliyimiz üçün məsələnin son dərəcə aktuallığından gəlir.

ABŞ alimi Samuel Hantinqtonun hələ ötən əsrin 90-cı illərindən “Sivilizasiyaların toqquşması” adı altında irəli sürdüyü proqnozlar, əfsus ki, bu gün özünü doğrultmaqdadır. Bu toqquşma, əsasən, Şərq və Qərb sivilizasiyaları, bir qədər də konkretləşdirsək, İslam və xristian dünyası arasında özünü göstərir. Bu da təsadüfi deyil. Çünki islam və xristianlıq ayrı-ayrılıqda Şərq və Qərbin çoxcəhətli dəyərlərini ən ümumiləşmiş formada ifadə edən, çoxlu sayda xalqların tarixi keçmişini, dünyagörüşünü, həyat tərzini ortaq bağlarda birləşdirən fərqli sivilizasiyalar kimi çıxış edir. Bu toqquşma ən müxtəlif formalarda təzahür edir. Elm, texnologiyalar, iqtisadi inkişaf kimi informasiya, təbliğat savaşı fəndlərində də xeyli irəli getmiş Qərb islam dünyasının mövqelərini sarsıtmaqdan ötrü ən ağlagəlməz üsullara əl atır. İslam dininə qarşı məqsədli təxribatlar həyata keçirilir. Mahiyyətcə sülh, sevgi, mərhəmət, ədalət, elm və irfan dini olan İslamın terror, zorakılıq, nadanlıq obrazı formalaşdırılır. Ayrı-ayrı ölkələrdə islam pərdəsi altında törədilən qanlı terror əməlləri ilə bir tərəfdən islam dini məqsədli şəkildə gözdən salınır, digər tərəfdən də bu dinin daşıyıcılarının həyatı təhlükə altına salınır. Müxtəlif yerlərdə tez-tez məscidlərdə, kütləvi ibadət məkanlarında İslam ümmətinə qarşı terror aktları törədilir. Yüzlərlə günahsız insan həyatından məhrum olur.

Ona görə də bu gün dini dəyərlərə münasibət və bu münasibətlər zəminində ortaya çıxan çoxsaylı problemlərin həlli yollarının axtarılması, bəlkə tarixdə heç zaman olmadığı qədər mühüm aktuallıq qazanmışdır. Bu məsələlər sevindirici haldır ki, Azərbaycan mətbuatının ən çox müraciət etdiyi mövzulardandır. Mütəmadi olaraq bu barədə şərhlər, araşdırmalar çap olunur, dünyada bu zəmində baş verən hadisələr, ən əsası isə Azərbaycanın bu prosesdə tutduğu ədalətli və barışdırıcı mövqe təfsilatı ilə yerli və beynəlxalq ictimaiyyətə çatdırılır.

Qədim dövrlərdən çoxmillətli ölkə kimi zəngin tolerantlıq ənənələrinə malik olması, dünyəvi və dini dəyərlər arasındakı tənasübü dəqiq şəkildə qoruya bilməsi, təhsilli, savadlı insanların rolunun, mövqeyinin aparıcı olduğu cəmiyyətimizdəki yüksək rasional düşüncə tərzi, eyni zamanda Prezident İlham Əliyevin bütün bu üstünlükləri ehtiva edən dövlət siyasətinin uğurları sayəsində bu gün Azərbaycan mədəniyyətlərarası dialoq ideyasının real fəaliyyət mərkəzinə çevrilib. Hər il ölkəmizdə keçirilən beynəlxalq humanitar forumlar, mədəniyyət tədbirləri, Qərb və İslam dünyasının aparıcı təmsilçilərinin bir araya gətirilməsi, multikulturalizm ideyalarının təşviqinə yönələn addımlar bu ali məqsədə xidmət edir.

Bu missiyanın həyata keçirilməsində, məlum olduğu kimi, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük əməyi var. Onun çox nadir hal kimi eyni vaxtda həm Qərb dünyasına aid UNESKO-nun, həm də islam dünyasının mövqeyini əks etdirən ISESKO-nun xoşməramlı səfiri statusunu daşıması, Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq sahəsində öz nəcib məqsədinə doğru tarixi nailiyyətlərinin simvolu sayıla bilər.

Azərbaycan bu gün, həmçinin müsəlman dünyasının öz daxilində İslam həmrəyliyi ideyasının aparıcı qüvvəsi kimi çıxış edir. Bu ideya da tarixi reallıqların diktəsidir. İlk növbədə, mədəniyyətlərarası dialoqda, obrazlı desək, çəkici eyni zindana vurmaq, islamın mütərəqqi ideyaları ətrafında bir araya gələrək vahid dəyər formalaşdırmaq üçün müsəlman ölkələri arasında vəhdət təmin olunmalıdır. Qeyd edək ki, bu gün və əslində tarixən də İslam dünyasına qarşı həyata keçirilən əsas təxribat istiqamətlərindən biri müsəlman ölkələri arasında təfriqə salınması, onların üz-üzə qoyulması, bir-biri ilə münaqişələrə sürüklənməsi və beləliklə vahid amallardan iraq düşməsidir. Şübhəsiz ki, hadisələrin gərginləşməsində xarici mətbuatın müstəsna rolu olur. Onların qərəzli, təhrifə yol verən yanaşmaları bu yönümdə mövcud olan onsuz da gərgin münasibətləri daha da mürəkkəbləşdirir. Lakin Azərbaycan mətbuatı bu zərərli tendensiyadan uzaq olmaqla yanaşı, öz timsalında barışdırıcı, düzgün mövqe sərgiləyir.

Bu gün islam hücuma məruz qalan tərəfdir. İslami dəyərlərin müasir dünyamızda qüdrətli hamiyə, ona sahib çıxıb zamanın çağırışlarına uyğun inkişaf etdirəcək, gələcəyə daşıyacaq yetkin cəmiyyətlərə ehtiyacı var. Son onilliklərdə islami dəyərlərin müxtəlif qərəzli kampaniyalardan qorunması, bu dəyərlərin dünyaya öz ilahi mahiyyətində təqdim edilməsi ilk növbədə İslam həmrəyliyindən, müsəlman ölkələrinin islam inancı və ümumbəşəri ideyalar ətrafında bir araya gətirilməsindən keçir.

“Çalışmalıyıq ki, islam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar” - Prezident İlham Əliyevin bu fikirləri onun missiyasının əsas məramlarıdır və islam dünyasına bu müraciətin indiyə qədər bənzər məzmunda səslənmiş başqa çağırışlardan ən böyük fərqi bu niyyətdəki səmimiyyətdir. Sevindiricidir ki, Azərbaycan mətbuatı Prezident İlham Əliyevin siyasətini tam mahiyyəti ilə anlayır və onun təbliğində böyük fədakarlıqlar göstərir.

İslam həmrəyliyi amalına xidmət Azərbaycan və onun mətbuatı üçün şüar, siyasi maraq elementi, yaxud iqtisadi mənfəət hədəfi deyil, tarixi taledir. Azərbaycan bu taleni XXI əsrdən də çox-çox əvvəl, xalqımızın ilk maarifçilərinin fikir tarixi səhnəsində göründükləri vaxtlardan yaşamağa başlayıb. XIX əsrin ikinci yarısından etibarən başlayan, ötən əsrin əvvəllərində daha geniş miqyas alan milli maarifçilik dalğasının həyata keçirilməsində və uğur qazanmasında isə mətbuat düşüncə adamlarımızın ən qüdrətli silahı idi.

Fərəh doğuran haldır ki, Azərbaycan mətbuatı, jurnalistlərimiz bu missiyanı müasir dövrümüzdə də uğurla davam etdirirlər. Dövlətimizin əsaslandığı dünyəvilik prinsiplərinin, din və dövlət münasibətlərinin, mədəniyyətlərarası dialoq və islam həmrəyliyi ideyalarının izahında fəal rol oynayırlar. Qələm sahiblərimizin, ziyalılarımızın radikal dini meyillərə qarşı mətbuatda hər zaman kəskin vətəndaş mövqeyindən çıxış etmələri, öz vicdanlarının səsi ilə məsələlərin mahiyyətini geniş xalq kütlələrinə çatdırmaları, insanlar arasında maarifləndirmə işləri aparmaları cəmiyyət olaraq böyük uğurumuzdur. Bütün bunlar həm də jurnalistika fəaliyyətinin qayəsini təşkil edir. Azərbaycan jurnalistikası bu zəmində formalaşıb. Maarifçilik, cəhalətə, xürafata qarşı mübarizə, cəmiyyətə düzgün yol göstərmə bu sənətin mayasındadır.

Azərbaycan dövlətinin həyata keçirdiyi din siyasətinin gerçəkləşməsində mühüm rol oynayan, dövlət-din münasibətlərinin düzgün tənzimlənməsini təmin edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də məhsuldar, səmərəli fəaliyyəti, eləcə də Komitənin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun reallaşdırdığı layihələrlə bu işə dəstək verir. Komitənin jurnalistlər üçün təşkil etdiyi tədbirlər, seminar və treninqlər, müsabiqələr mətbuat nümayəndələrinin fərdi inkişafına, peşəkarlığının artırılmasına, maarifləndirmə fəaliyyətinə böyük dəstəkdir.

Jurnalistlərimizin indi buna çox ehtiyacı var. Onların böyük vətəndaş təəssübkeşliyi ilə qələmə aldıqları yazıların, hazırladıqları televiziya, radio materiallarının bir qismində çatışmayan cəhət məhz peşəkarlıq olur. Bu da təsadüfi deyil. Çünki din, eləcə də din və dövlət münasibətləri kifayət qədər mürəkkəb, zəngin biliklər tələb edən sahədir. Azərbaycan jurnalistikası uzun illər ərzində obyektiv səbəblərdən bu sahədə peşəkarlıq ənənələrinə malik olmayıb. İndi isə bu ənənələrin formalaşması mediamızda dini mövzularla bağlı peşəkarlıq səviyyəsinin yüksəlməsinə xidmət göstərəcək, cəmiyyətimizin maariflənməsinə böyük töhfə verəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının 22 İyul Milli Mətbuat Günü münasibətilə “Din və media” mövzusunda keçirdiyi birgə müsabiqəsinə təqdim olunur.*

*Fikrət Qoca*

## AZƏRBAYCAN



Vətən - candı - bütöv birdi.
Müqəddəsdi, pirdi, sirdi...
Hər bir şeyin bir həddi var,
Dağın-düzün sərhəddi var,
Bacı-qardaş arasında
"Sizin" - "bizin" sərhəddi var.
Alnımızın qoruğunda
Qaşla-gözün sərhəddi var.
İki üzün arasında
Gözlə-gözün sərhəddi var.
Hər sifətdə iki üz var,
Üzlə-üzün sərhəddi var.
Dilin-dişin arasında
Sözlə-sözün sərhəddi var.
Azərbaycan deyəndə biz
Heç bilmədən "can" - deyirik!
Təki ürək bütöv olsun,
Ürəkdə qan bütöv olsun,
Ruhumda can bütöv olsun!
Hər bir vətən övladında
Azərbaycan bütöv olsun!!!
Bizi heç kəs bölə bilməz!
Birlik - Ruhdur ölə bilməz!
Odlar oğlu bir-birinə
Harda olsa can deyəcək
Ürəkdən candan deyəcək.
Od oğlunun adıdır can.
Onun böyük ürəyinin
Bayrağıdır Azərbaycan.

# Horadizdə vətəndaşlarla görüş

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Əhməd Əhmədzadə iyulun 10-da Horadiz şəhərində vətəndaşlarla görüşüb.

AZƏRTAC xəbər verir ki, Mil-Muğan Hidroqovşaqların İstismarı İdarəsinin inzibati binasında keçirilən qəbulda Füzuli rayonundan və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan vətəndaşların da müraciətləri dinlənilib. Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, nasos stansiyalarının tikintisi və təmiri, suvarma kanallarının lildən təmizlənməsi, həmçinin ASC-nin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri tərəfindən diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb, digər müraciətlər üzrə ASC-nin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

# 6 ayda sahibkarların "Azərişıq" ASC-yə müraciətlərinin sayı 3 dəfə artıb

**2019-cu ilin arxada qalan yarım ili ərzində "Azərişıq" ASC-yə "ASAN xidmət", "ASAN Kommunal" və elektron qaydada 5200 sahibkar obyektini elektrik şəbəkəsinə qoşdurmaq üçün müraciət edib ki, bu da 2018-ci ilin birinci yarım ili ilə müqayisədə 3 dəfə çoxdur. Belə ki, ötən ilin müvafiq dövründə 1642 sahibkar obyektini elektrik şəbəkəsinə qoşdurmaq üçün müraciət etmişdi.**

Sahibkarların müraciətlərinin sayında ciddi artımın müşahidə olunması heç şübhəsiz ki, aparılan islahatlarla bağlıdır. Belə ki, ötən il dekabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" fərman imzalaması və şəbəkəyə qoşulma müddəti 24 gündən 20 günə, prosedurların isə 3-dən 2-yə endirilməsi kifayət qədər ciddi islahat sayılır. Bundan başqa, şəbəkəyə qoşulma ilə bağlı kilovata görə vahid tarifin tətbiq olunması, ən əsası isə "Azərişıq" ASC-nin mütəxəssisləri tərəfindən hazırlanan elektron müraciətlərin idarəolunması sisteminin Elektron Hökumət portalına inteqrasiya edilməsi də sahibkarların və ya vətəndaşların onlayn qaydada müraciət etməklə bir neçə dəqiqə ərzində işini yekunlaşdırmasına şərait yaradıb.

2019-cu ilin arxada qalan 6 ayı ərzində "Azərişıq" ASC-yə "ASAN xidmət", "ASAN Kommunal" və elektron qaydada müraciət edən vətəndaşların da sayında 2 dəfədən çox artım olub. Belə ki, ötən ilin birinci yarısında 9500 vətəndaş evinə, bağına, yaxud həyətinə işıq çəkdirmək üçün müraciət etmişdisə, bu ilin yarım ili ərzində 2075 vətəndaş elektrik şəbəkəsinə qoşulmaqla bağlı "Azərişıq" ASC-yə müraciət edib. Ümumilikdə isə "Azərişıq" ASC-nin, "ASAN xidmət" və "ASAN Kommunal" vasitəsilə göstərdiyi 15 xidmət üzrə 2019-cu ilin arxada qalan yarım ili ərzində 148 min müraciət olunub ki, bu da ötən ilkindən 47 min müraciət çox deməkdir. Xatırladaq ki, ötən ilin müvafiq dövründə 101 min müraciət daxil olmuşdur.

***"Azərbaycan"***


*Təkrar*

## "Azərsu" ASC daxili vəsaiti hesabına generator və köməkçi mexaniki avadanlıqların əsaslı təmiri işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**
**LOT-1:** Generatorların əsaslı təmiri işlərinin satın alınması
**LOT-2:** Köməkçi mexaniki avadanlıqların əsaslı təmiri işlərinin satın alınması

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288) ala bilərlər.

**Hər bir LOT üzrə iştirak haqqı 200 manatdır.**

| | |
|---|---|
| **Təşkilat:** | **"Azərsu" ASC** |
| **VÖEN:** | **9900001751** |
| **Bank:** | **"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı** |
| **Kod:** | **200112** |
| **VÖEN:** | **9900003611** |
| **M/h:** | **AZ37NABZ 01350100000000001944** |
| **SWIFT BIK:** | **AIIBAZ2X** |
| **H/h:** | **AZ65AIIB 33070019441100216111** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 avqust 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **15 avqust 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 avqust 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi mətbəə və çap məhsullarının kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 16 iyul 2019-cu il saat 15:00-dək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan qəzeti"nin 11, 24 may və 22 iyun 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına qaynaq aqreqatları və generatorlar üçün süzgəclərin, araqatı, paranit və kipkəclərin Lot-2 - araqatı, paranit və kipkəclərin satın alınması məqsədilə dərc edilmiş tenderlərində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 25 iyul 2019-cu il saat 16.00-a, təkliflərin açılışı isə 26 iyul 2019-cu il saat 16.00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs Məmmədyar Musayevdən, 431 47 67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 05 və 19 mart 2019-cu il tarixli sayında Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 5 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən LOT 1: İnformasiya texnologiyalarının idarəedilməsi üzrə audit xidmətinin satın alınmasında **"PraysvoterhausKupers Audit Azərbaycan" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 05 iyul 2019-cu ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**"Azərişıq" ASC-nin** Tender komissiyası tərəfindən 31.05.2019-cu il tarixdə **"Müxtəlif mal-materialların satın alınması"** məqsədilə elan edilmiş açıq tenderin LOT-3 (Müxtəlif nəqliyyat sərfiyyatı mallarının satın alınması) üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC-nin Tender komissiyası tərəfindən 16 may 2019-cu il tarixdə "Yaşma, Yaşma bağları və Şurabad Külək Elektrik stansiyalarında quraşdırılan külək enerjili elektrik qurğularının daimi işlək vəziyyətdə saxlanması məqsədilə turbinlərə peşəkar texniki xidmətlərin göstərilməsi üzrə işlərinin satın alınması" məqsədilə elan edilmiş açıq tenderdə təklif verən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***


# Beynəlxalq aləm

## ABŞ "Hizbullah"ın tərəfdarlarını "qara siyahı"ya saldı



ABŞ hökuməti bir livanlı məmur və "Hizbullah" partiyasının iki deputatına qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə Amerikanın Maliyyə Nazirliyinin mətbuat xidməti məlumat verir.

Bildirilir ki, "qara siyahı"da Livan parlamentinin üzvləri Amin Şərri və Məhəmməd Rəədin, habelə partiyanın nümayəndəsi Vəfiq Səfanın adları yer almışdır. Onların ABŞ-dakı aktivləri bağlanmış, Amerika vətəndaşlarına və şirkətlərinə həmin şəxslərlə biznes qurmaq qadağan olunmuşdur.

Vaşinqtonda hesab edirlər ki, "Hizbullah" Livan parlamentindəki agentlərindən terrorçu qrupun maraqları üçün istifadə edir.

## Monako Avropada 5G rabitəsindən istifadə edən ilk ölkədir

Monako Avropada beşinci nəsil mobil rabitə (5G) şəbəkəsindən istifadə edən ilk dövlət olmuşdur. "Monaco Telecom" şirkətinin prezidenti Etyen Franzinin dediyinə görə, artıq knyazlığın bütün ərazisində 5G mobil rabitəsi işləyir. Bu barədə "Kommersant" qəzeti xəbər verir.

Məlumata görə, şəbəkənin avadanlığı Çinin "Huawei" şirkəti tərəfindən hazırlanıb quraşdırılmışdır.

Xatırladaq ki, aprel ayının əvvəlindən Cənubi Koreyanın "SK Telecom", KT və "LG Uplus" telekommunikasiya şirkətləri ölkə əhalisinə beşinci nəsil mobil rabitəsi (5G) xidməti təqdim etməyə başlamışdır. Cənubi Koreya dünyada bu mobil rabitəsi standartını kommersiya istismarına verən ilk dövlətdir.

Ötən ay ölkənin nəhəng "Samsung Electronics" şirkətinin mütəxəssisləri altıncı nəsil rabitə (6G) texnologiyaları sahəsində tədqiqatlara başlamışlar. Tədqiqatlar Seuldakı elmi mərkəzdə aparılır. Güman olunur ki, 6G standartı 2025-ci ildə beşinci nəsil mobil rabitəsini əvəzləyəcək.



## Suriyada partlayan mina 7 uşağın həyatına son qoydu

Suriyada mina partlaması nəticəsində 7 uşaq həlak olmuşdur. Bu barədə yerli SANA agentliyi xəbər verir.

Məlumata görə, hadisə Deyr-əz-Zor əyalətinin Dablan kəndində baş vermişdir. Minanın İŞİD terrorçuları tərəfindən qoyulduğu güman olunur.

Qeyd edilir ki, Suriyanın yaşayış məntəqələrində bu cür faciələr müntəzəm baş verir. Belə ki, terrorçular əvvəllər ələ keçirdikləri ərazilərdən geri çəkilərkən xeyli sayda partlayıcı qurğular qoyub getmişlər.


Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 12.07.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.


## Qətərin iki hərbi təyyarəsi havada toqquşdu



Dünən Qətər Hərbi Hava Qüvvələrinin iki təyyarəsi təlim-məşq uçuşu zamanı havada toqquşmuşdur. İlkin məlumata görə, pilotlar katapultdan istifadə etmişlər. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Hadisəni Qətərin Müdafiə Nazirliyi də təsdiqləmişdir. Qəzanın baş verdiyi yer və digər təfərrüatlar barədə məlumat açıqlanmır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Hüseynbala Mirələmova qayınatası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin üzvü Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan " nəşriyyatının kollektivi iş yoldaşları Sevda Hacıyevaya qardaşı

**ÇƏRKƏZ HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qazax Xeyriyyə İctimai Birliyinin İdarə Heyətindən İlham Pirməmmədov, Teymur Bünyadov, Nəriman Həsənzadə, Nizami Cəfərov, Məmməd Musayev, Şahin Mustafayev, Hacıvəli Mustafayev və ictimai birliyin digər üzvləri Azərbaycan Tibb Universitetinin dosenti

**ELXAN MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8842
Sifariş 2239
Qiyməti 40 qəpik